“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



*Qəzet 1932-ci ildən çıxır* № 13-14 (6865-6866) 23 dekabr 2022-ci il Cəbrayıl RİH-nin qəzeti




## Buxarestdə “yaşıl enerji” ilə bağlı strateji tərəfdaşlıq haqqında Saziş imzalandı

**Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclas keçirilib.**

Rumıniya Prezidenti Klaus Yohannisin dəvəti ilə Buxarestdə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda iştirak edib.

Rumıniya Prezidenti Klaus Yohannis Prezident İlham Əliyevi, Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayeni, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini və Macarıstanın Baş naziri Viktor Orbanı qarşıladı.

Sonra birgə foto çəkdirildi.

***

Plenar iclası açan Rumıniya Prezidenti **Klaus YOHANNİS** qonaqları salamladı və çıxış etdi. Dördtərəfli sazişin əhəmiyyətindən danışan Rumıniya Prezidenti bildirdi ki, bu sənəd qeyd olunan ölkələr arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün təməl yaradır. Həmçinin perspektivdə hələ görülməli işlərin çox olduğunu qeyd edən Rumıniya Prezidenti dedi: ”Növbəti mərhələdə sualtı elektrik enerjisi xətti boyunca rəqəmsal xətti çəkməyi hədəfə alırıq. Dəniz nəqliyyat əlaqələrinin bizim Konstantadakı limanımızdan Gürcüstan istiqamətində genişlənməsi nəzərdə tutulur. Bu səylər Azərbaycanla və sonra Mərkəzi Asiya ilə bağlılığı artıracaq. Potensialımızdan yararlanmaq və dayanıqlılığı artırmaq üçün qarşıda bizi çoxlu işlər gözləyir”.

Avropa Komissiyasının prezidenti **Ursula Fon der LYAYEN** isə qeyd etdi ki, bu saziş Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq və regionlarımıza təmiz enerjiyə keçidə nail olmağa kömək edəcək. Ursula Fon der Lyayen sözügedən sənəddə bərpaolunan enerjiyə geniş diqqət ayrılmasından məmnunluğunu ifadə edərək dedi: ”Bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Mən, sadəcə, onu deyə bilərəm ki, bu, çox iddialı bir layihədir. Bu layihə bizi həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfindən, həmçinin Xəzər dənizi regionu ilə bağlayacaq. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə bizə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Sonra dövlətimizin başçısı iclasda çıxış etdi.

## YAP-ın 30-cu ildönümü münasibətilə tədbir keçirilib





Noyabrın 1-də Yeni Azərbaycan Partiyası (YAP) Cəbrayıl rayon təşkilatı tərəfindən partiyanın yaradılmasının 30-cu ildönümü münasibətilə tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin abidəsi önünə gül-çiçək dəstələri qoyaraq dərin ehtiramlarını bildiriblər. Sonra 4 saylı qəsəbə ərazisində salınmış “Şəhidlər” Abidə KompleksindəAzərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi yad olunub, abidələri önünə gül-çiçək dəstələri qoyulub.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ulu öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev çıxış edərək bildirib ki, partiyamız ötən 30 il ərzində Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə zəngin və şərəfli inkişaf yolu keçib, çox mühüm, tarixi əhəmiyyətə malik olan nailiyyətlər qazanıb: ”Ötən illərdə olduğu kimi, bu gün də öz proqramında müstəqil dövlətçilik, azərbaycançılıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsiplərini rəhbər tutan Yeni Azərbaycan Partiyasının cəmiyyətdə rolu və nüfuzu durmadan artır”.

YAP Veteranlar Şurasının üzvü Əli Həsənov çıxışında YAP-ın 30 ildə gördüyü işlərdən, qazandığı böyük uğurlardan və partiyamızın rəhbərinin uğurlu siyasətindən danışıb. Qeyd edib ki, 30 il müddətində hər zaman uğurlara imza atan YAP xalqın etimad etdiyi ünvana çevrilib.

YAP İdarə Heyətinin üzvü Bayram Aslanov çıxışında 44 günlük Vətən müharibəsində xalqın birliyi və qazanılan Zəfərdən söhbət açıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov Yeni Azərbaycan Partiyasının ümummilli lider Heydər Əliyevin ideyalarına əsaslanaraq ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etdiyini, dövlətçiliyimizin möhkəmlənməsinə və Azərbaycanın dinamik inkişafına öz töhfəsini verdiyini söyləyib.

Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxışında deyib ki, partiya daim təkmilləşməyə və yeniliklərə açıq bir siyasi təşkilatdır: ”Vətən müharibəsində qazanılan qələbədə də partiyanın yürütdüyü ideologiyanın rolu danılmazdır”.

Tədbirdə partiya veteranı, Əməkdar müəllim Rəhim Rəhimov, Soltanlı kənd tam orta məktəbin direktoru Aygün Hüseynova və gənc partiya fəalı Əli Məmmədli çıxış ediblər.





Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalı fəxri fərmanla təltif edilib.

YAP sıralarına yeni qoşulmuş gənclərə üzvlük vəsiqələri, 44 günlük Vətən müharibəsində iştirak etmiş bir qrup müharibə iştirakçısına medallar təqdim olunub.

**“XUDAFƏRİN”**





# Ümummilli Lider anıldı





12 dekabr Ümummilli Lider Heydər Əliyevin anım günüdür.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Məhz Heydər Əliyevin təməlini qoyduğu siyasətin nəticəsidir ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında dövlətimiz 44 günlük Vətən müharibəsində mütləq qələbə qazandı və torpaqlarımızın ərazi bütövlüyü təmin olundu. ”Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur” deyən Ümummilli Lider Heydər Əliyevin arzuları gerçəkliyə çevrildi. Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan Ulu Öndərin qoyduğu yolla gedərək uğurlu ölkə adını daima qoruyacaq.

Anım günü ilə əlaqədar olaraq rayon sakinləri 4 saylı qəsəbədə yerləşən mədəniyyət və istirahət parkında dahi rəhbərin abidəsini ziyarət edərək, önünə tər gül-çiçək dəstələri qoymuş, əziz xatirəsini dərin ehtiramla yad etmişlər.

# Folklor İnstitutunda Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib



08 dekabr 2022-ci il tarixində AMEA Folklor İnstitutunda Ümummilli Lider Heydər Əliyevin anım günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə İnstitutun baş direktoru, akademik Muxtar Kazımoğlu-İmanov açıb. Akademik bildirib ki, Heydər Əliyev Azərbaycanın dövlətçiliyi tarixində xüsusi xidmətləri olan nadir şəxsiyyətlərdən biridir. Məhz Ulu Öndərin respublikada hakimiyyətə gəldiyi 1969-cu ildən etibarən Azərbaycanın təhlükəsizliyi, torpaqlarımızın bütövlüyü uğrunda mühüm addımlar atılmağa başlanılıb. Sovet dörünün məhdud imkanları daxilində Heydər Əliyevin təşəbbüsü, inadı, səyi və uzaqgörənliyi hesabına Azərbaycanda xüsusi hərbi məktəb açılıb, Azərbaycan dili dövlət dili statusu qazanıb. Alim bildirib ki, dövlətin taleyüklü məsələlərinin həlli Heydər Əliyevin hələ sovet dövründə mədəniyyət, incəsənət, iqtisadiyyat, elm və təhsil sahəsində yürütdüyü siyasətin tərkib hissəsini təşkil edib. Akademik nəzərə çatdırıb ki, AMEA Folklor İnstitutu da Heydər Əliyevin adıyla birbaşa bağlıdır. Belə ki, 1994-cü ildə yaradılmış Folklor Elmi-Mədəni Mərkəzi 2003-cü ildə H.Əliyevin prezidentliyi dövründə, onun tövsiyəsi ilə institut statusu alıb. Akademik çıxışının sonunda onu da vurğulayıb ki, II Qarabağ savaşında əldə etdiyimiz qalibiyyətin, yeni ordu quruculuğunun və buna imkan verən iqtisadi inkişafın bönövrəsi də Heydər Əliyevin prezidentliyi dövründə atılıb.



Giriş nitqindən sonra institutun Folklor studiyasının Ümummilli Liderlə bağlı hazırladığı videoçarx nümayiş olunub.

Daha sonra institutun elmi işçisi Mahir Cavadlı çıxış edərək, Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin banisi və qurucusu kimi fəaliyyətindən bəhs edib. Tədbirdə söz alan fil.ü.f.d., dosent İlhamə Qəsəbova Heydər Əliyevi Azərbaycan xalqının milli mədəniyyətinə və elminə xüsusi önəm verən böyük bir şəxsiyyət kimi dəyərləndirib. Fil.ü.f.d., dosent Şakir Albalıyev isə çıxışında Ulu Öndərin Azərbaycan sevgisindən, onun bir azərbaycanlı kimi mental dəyərlərimizə bağlılığından, ağsaqqallıq institutundan yararlanaraq ölkədə sabitliyin yaradılmasında mühüm rolundan söz açıb.

# Məktəblimiz Beynəlxalq Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb



30 oktyabrda Bakı şəhər 200 nömrəli məktəb kompleksində AMO (American Mathematics Olympiada) Beynəlxalq Riyaziyyat Olimpiadası keçirilmişdir. Respublikamızın müxtəlif şəhər və rayonlarının məktəblilərinin təmsil olunduğu yarışda rayonun K.Məmmədov adına B.Mərcanlı kənd tam orta məktəbinin 8-ci sinif şagirdi Həsənzadə Fərid İsmayıl oğlu uğurla iştirak edərək bürünc medala layiq görülmüşdür.

Əlavə olaraq bildiririk ki, yarışların final mərhələsi 2023-cü ilin iyun ayının 26-da Sinqapurda keçiriləcəkdir.

Məktəblimizi təbrik edir və gələcək yarışlarda ona uğurlar arzulayırıq.

# Səyyar görüş-qəbullar

## *Qızılburun qəsəbəsində*



**19 dekabr 2022-ci il tarixdə Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov Hacıqabul rayonu, Qızılburun yaşayış massivində salınmış köçkün qəsəbəsində məskunlaşan rayon sakinləri ilə səyyar görüş-qəbul keçirib. Görüşdə Cəbrayıl Rayon İcra Hakimiyyəti aparatının məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**

Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov çıxış edərək, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən işğal altında olan torpaqlarımızın azad edilməsindən, Vətən müharibəsində şəhid olmuş, yaralanmış şəxslərə, müharibə iştirakçılarına göstərilən diqqət və qayğıdan, işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-abadlıq işlərindən, əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlərdən danışıb.

Səyyar qəbulda sakinlərin arzu və təklifləri dinlənilib, səsləndirdikləri məsələlər məsul şəxslərin iştirakı ilə yerindəcə araşdırılaraq, həlli ilə bağlı tədbirlər müəyyənləşdirilib, həlli vaxt tələb edən məsələlər nəzarətə götürülüb.

Qəbulda iştirak edən sakinlər əhalinin problemlərinin həll edilməsi məqsədilə həyata keçirilən tədbirlərdən məmnun qaldıqlarını, yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

## *6 saylı Cəbrayıl qəsəbəsində*



**Səyyar qəbul qrafikinə əsasən, rayon İcra Hakimiyyəti başçısının növbəti səyyar görüşü 06 dekabr 2022-ci ildə 6 saylı Cəbrayıl qəsəbəsində keçirilib. Qəbulda RİH-nin məsul əməkdaşları, rayonun xidmət təşkilatları iştirak ediblər.**

Görüşdə çıxış edən İcra Başçısı Kamal Həsənov bildirib ki, regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən dövlət başçısının hərtərəfli qayğısı sayəsində zamanla bütün problemlər aradan qaldırılır və əhalinin sosial rifahına yönəlmiş tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Rayonda keçirilən istər səyyar qəbullarda, istər də fərdi şəkildə aparılan qəbullarda səsləndirilən hər bir müraciət diqqətlə araşdırılaraq qanunvericiliyə uyğun icrası təmin olunur. Vətəndaşlarımızı narahat edən ən kiçik müraciət, problem belə diqqətdən kənarda qalmır. Təbii ki, aparılan bütün bu tədbirlər əhalimizin rahatlığının təminatına, güzəranının yaxşılaşdırılmasına xidmət edir və görülən bu məqsədyönlü işlər bundan sonra da davamlı olacaqdır.

Rayon İcra Hakimiyyətinin başçısı sakinlərin fikirlərini dinlədikdən sonra hər bir təklif və şikayətlə bağlı müvafiq qurumlara tapşırıqlar verib.

Sakinlər daim diqqət və qayğı ilə əhatə olunduqları üçün ölkə rəhbərinə minnətdarlıqlarını bildiriblər.

## *Əmirvarlı kənd tam orta məktəbində*



**16 dekabr 2022-ci il tarixdə rayon İcra Hakimiyyətinin Başçısı Kamal Həsənov Bakı şəhəri, Nizami rayonunda yerləşən rayonun Əmirvarlı kənd tam orta məktəbində növbəti səyyar görüş-qəbul keçirib. Qəbulda Cəbrayıl Rayon İcra Hakimiyyəti aparatının məsul əməkdaşları və rayon sakinləri iştirak ediblər.**

Qəbulda çıxış edən İcra başçısı Kamal Həsənov sakinlərə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən cari ildə qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş qərarlar barədə tam dolğunluğu ilə məlumat verib. İşğaldan azad olunmuş ərazilərdə eləcə də Cəbrayıl rayonunda görülməsi nəzərdə tutulan quruculuq işləri haqqında səyyar görüşün iştirakçılarına məlumat verən rayon rəhbəri sakinləri narahat edən müxtəlif məsələlərə aydınlıq gətirərək, müvafiq izahatlar verib və qaldırdıqları məsələlərin həlli nəzarətə götürülüb.

Görüş sakinlər tərəfindən razılıqla qarşılanıb. Sakinlər əvvəlki qəbullar zamanı qaldırdıqları məsələlərin həlli ilə bağlı görülən işləri də yüksək qiymətləndirib, ölkə Prezidenti və birinci vitse-prezident Mehriban xanım Əliyevanın ünvanına minnətdarlıq dolu xoş sözlər ifadə ediblər.

# Azadlığın işığında...

Oktyabrın 23-də Dağtumas kəndinin işğalçılardan azad olunmasının 2-ciildönümü şərəfinə 2-ci Fəxri Xiyabandakı şəhid məzarlığında aksiya keçirildi. "Dağtumasa qayıdış qrupu"nun yaradıcısı Kənan Haqverdiyevin təşəbbüsü ilə həyata keçirilən bu tədbir Dağtumasdan olan 2-ci Qarabağ müharibəsi şəhidi, tibb xidməti kapitanı Anar Kərəm oğlu Məmmədovun məzarı üstünə gül buketi, əklil qoyulmaqla davam etdirildi. Şəhidin əmisi oğlu şair Malik Əhmədoğlu məzar üstündə çıxış etdi, şeir söylədi və şəhidlərimizin, qazilərimizin fədakarlıqlarından söhbət açdı.

Tədbir iştirakçıları növbəti sözün mənə verilməsini təklif etdilər. Mən çıxışımda 44 günlük vətən müharibəsində əslən Dağtumasdan, daha doğrusu, Dağtumas bölgəsindən olan mayor Elsevər Vaqif oğlu Paşayevin, XTQ şəhidi Tural Ədil oğlu Bayramlının, habelə Anar Saleh oğlu Qumaşovun da adlarını xatırlatdım və bütün şəhidlərin xatirəsinin bizim üçün əziz və unudulmaz olduğunu dedim. Qeyd etdim ki, hamımız deyirik ki, şəhidlərimizin borcundan çıxa bilmərik. Amma unutmayaq ki, şəhidlərimiz bizim yolumuzda - vətənimizin azadlığı və işıqlı gələcəyi naminə canlarını qurban vermişlərsə, biz də o zaman şəhidlərin borcundan çıxa bilərik ki, həmin müqəddəs amalları həyatımız boyu davam etdirib yaşada biləķ. Bax o zaman şəhidlərimizin ruhları da sevinər - Şad olar ki, biz azad vətənimiz naminə çalışıb fəaliyyət göstəririk. Belə olduğu təqdirdə bizlər müəyyən mənada şəhidlərimizin borcunu ödəmiş olarıq.







Söz Cəbrayıl şəhidləri ilə bağlı kitabların həmmüəlliflərindən olan Tariyel Abbaslıya verildi. O da həmçinin 44 günlük vətən savaşında qazilərimizin, şəhidlərimizin əfsanəvi döyüş şücaətlərindən danışdı. Şəhid bacısı, Azərbaycan dili və ədəbiyyatı müəllimi Aynur Məmmədovanın təsirli nitqi hamımızı kövrəltdi, şəhidin məzarının olmasını da "xoşbəxtlik" kimi səciyyələndirib, 1993-cü ildə doğma Cəbrayılda, Dağtumas ərazisində döyüşlərdə canını fəda etmiş qardaşı Məzahirin torpağa gömülməyən nəşinin doğmaları üçün əbədi bir qəlb sızıltısı olduğunu həyəcanla dilə gətirdi. Bildirdi ki, kəndimizə qayıdanda mən qardaşımı haraylayanda şübhəsiz ki, onun ruhu mənə, doğmalarımıza hay verəcəkdir...

Şəhid bacısı Səkinə Həmidova, şəhid əmisinin adını daşıyan BDU-nun tələbəsi Vüqar Cəbrayılov, şəhid qardaşı Kamil Gülməmmədov, eləcə də digər şəhid ailəsi üzvləri, qazilər də çıxışlar edib, doğma Qarabağımıza, Cəbrayılımıza, Dağtumasa qayıtmaq arzularını dilə gətirdilər və əsgərlərimizin 44 günlük Vətən müharibəsindəki şücaətindən danışdılar.

Süleyman İbrahimov, Yaqub Əzizov, Elşən Məmmədov, Qənbər Əzizov, Oruc Mikayılov, Sərdar Gülməmmədov, Məhəmməd Qazanzəmili, Müşfiq Alməmmədov, Arzu İbrahimov, Afər Albalıyev, Maşallah İsayev, Hüseyn Qaraoğlan oğlu, Aydın Abdullayev, Yaqub Şirinov, Qənimət Rüstəmov və "Dağtumasa qayıdış qrupu"nun digər üzvləri növbəti dəfə bu tədbirin doğma yurdumuzda nəsib olmasını arzuladılar.

**ALBALIYEV**



# "Bədii əsərlərdə Şuşa ruhu şagirdlərin təqdimatında"

Elm və Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən Təhsildə inkişaf və innovasiyalar üzrə VI qrant müsabiqəsinin qalibi olmuş "Bədii əsərlərdə Şuşa ruhu şagirdlərin təqdimatında" adlı layihənin təqdimatı olub. Öncə layihə rəhbəri -Cəbrayıl rayon 8 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Zaur Vəliyev layihə haqqında geniş məlumat verdi. Zəfər Günü ərəfəsində həyata keçirilən bayram əhval-ruhiyyəli tədbirdə layihə çərçivəsində təlimlərdə iştirak etmiş şagirdlərin hazırladığı səhnəcik və şeirlər, Cəbrayıl rayon Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin şagirdlərinin təqdimatında rəngarəng ifalar nümayiş etdirildi.




Tədbirdə Milli Məclisin deputatı Ceyhun Məmmədov, YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev iştirak ediblər

Sonda layihə rəhbəri Zaur Vəliyevə və bütün iştirakçılara uğurlar arzulanıb xatirə şəkilləri çəkilib.

# Zəfər günü qeyd olundu

Noyabrın 4-də Cəbrayıl rayon Tarix-Diyarşünaslıq Muzeyində "Zəfərin mübarək, Şuşa" adlı tədbir keçirildi. Dövlət Himnimizin səsləndirilməsi ilə başlanan tədbirdə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Muzeyin direktoru Aytən Fətullayeva qonaqları salamladı.

Tədbirə şəhid ailələri, qazilər, məktəblilər, ictimaiyyət nümayəndələri qatılmışdılar. Cəbrayıl RİH-nin əməkdaşı Əbil Vəliyev, Cəbrayıl rayon Könüllü İctimai Nəzarət Təşkilatının sədri Fəxrəddin Mürsəlov, qazi leytenat Səməd Atakişiyev, Cəbrayıl rayon İcra Hakimiyyəti işçiləri, YAP fəallarının iştirak etdiyi tədbir yüksək vətənpərvərlik ovqatı ilə keçdi. Şəhid anaları Solmaz Əsədova, Səkinə İbrahimova, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisultan Sadıqov, fəlsəfə doktoru Tariyel Abbaslı, deputatın köməkçisi Rəşad Quliyev və başqaları çıxışlar edib qazanılan 44 günlük Zəfərin xalqımızın tarixi taleyindəki mühüm əhəmiyyətindən ətraflı söhbət açdılar. İfa olunan vətənpərvərlik ruhlu mahnılar isə tədbirin ovqatına xüsusi ahəng qatdı.





**Şakir Əlifoğlu**

# "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda tədbir

25 noyabr 2022-ci il tarixdə Cəbrayıl rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə R.Xudiyev adına Minbaşılı kənd tam orta məktəbində Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2307 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nına uyğun olaraq "Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" mövzusunda tədbir keçirilmişdir. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyəti Başçısının müavini Fəridə İbayeva, rayon Polis şöbəsi rəisinin köməkçisi polis mayoru Fariz Misirov, rayon Polis şöbəsinin İctimai Təhlükəsizlik bölməsinin Xidmət üzrə baş inspektoru, polis baş leytenantı Amid Məmmədov, Təhsil sektorunun baş məsləhətçisi Xəzər Səmədov, səhiyyə işçiləri, psixoloqlar, valideynlər, məktəbin müəllim və şagird kollektivi iştirak ediblər.

Tədbirdə çıxış edənlər bildiriblər ki, tədbirimiz 25 noyabr - Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Gününə təsadüf edir. Azərbaycan Respublikasında həyata keçirilən təsirli tədbirlərə baxmayaraq, məişət zorakılığı dünyanın bir çox ölkələrində olduğu kimi ölkəmizdə də problem olaraq qalmaqdadır. Məişət zorakılığının qarşısının alınması istiqamətində görülən işlərin səmərəliliyini artırmaq üçün qabaqlayıcı tədbirlərin gücləndirilməsi, zorakılıqdan zərər çəkmiş şəxslərə təxirəsalınmaz və hərtərəfli yardım göstərilməsi, bu məqsədlə beynəlxalq standartlara uyğun müvafiq infrastrukturun yaradılması və məişət zorakılığı ilə mübarizə sahəsində dövlət orqanlarının potensialının artırılması tələb olunur. Respublikanın Birinci vitse-prezidenti, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul olunmuş,




Prezident İlham Əliyevin dəstəyi ilə qadın hüquqlarının qorunması, xüsusilə də məişət zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında məişət Zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmiş və bir çox istiqamətdə tədbirlər həyata keçirilir. Daha sonra çıxış edənlər qeyd ediblər ki, hər bir zorakılıq əməli, o cümlədən, məişət zorakılığı qadınlar, uşaqlar, ailələr və bütövlükdə cəmiyyət üçün ağır fiziki, emosional, iqtisadi və sosial nəticələr doğurur. Qeyd etmək lazımdır ki, məişət zorakılığı ailədə böyüyən boya başa çatan uşaqların tərbiyəsinə, psixologiyasına, sağlam düşüncə tərzinin formalaşmasına mənfi təsir göstərir. Məişət zorakılığına qarşı mübarizə bütün cəmiyyətlərdə olduqca mürəkkəb bir problemdir. Ona görə də, məişət zorakılığı və ya ailədə zorakılıq halları yalnız bir ailə üçün deyil, bütövlükdə cəmiyyət üçün təhlükəlidir. Məişət zorakılığı probleminin həlli hərtərəfli yanaşma və məqsədli tədbirlərin həyata keçirilməsini tələb edir. Natiqlər məişət zorakılığı hallarının qarşısının alınması üçün maarifləndirmə işinin gücləndirilməsinin dövlətimizin daxili siyasətində hər zaman ən mühüm prioritetlərdən biri olduğunu qeyd ediblər.

Sonda "Susma" adlı qadın zorakılığına qarşı hazırlanmış sosial çarx nümayiş etdirilib.

№ 13-14 (6865-6866) 23 dekabr 2022-ci il



"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# HİKMƏTLİ MÖCÜZƏ



*Səni sənli günündə görəydi gözlərimiz,*
*Sənin sənsizliyində titrədi dizlərimiz.*
*Ağ saçların ağ çiçəyim, yasəmənim,*
*Varlığına qurban olum, ana, sənin.*
*(Fərzalı Abbasəlioğlu)*

Mən müqəddəs bir ana haqqında sözümü Hz.Məhəmməd Peyğəmbərin bir kəlamı ilə başlamaq istəyirəm. "Cənnət anaların ayaqları altındadır". El anamız Fatma ana haqqında, onun möcüzələri ilə bağlı çox yazılıb, çox gözəl ifadələr işlənib. Mən də bir yaxın qohum kimi, bibim kimi onun möcüzələri və el anası səviyyəsinə yüksəlməsi haqqında düşüncələrimi qeyd etmək istəyirəm.

El anamız Fatma ana həmişə yaşadığı, içərisində olduğu elin, obanın qayğısı ilə yaşayıb. El-obanın qayğısını öz qayğısı bilib. O vaxtlar Fatma ana tez-tez dağlıq ərazidə yerləşən Sirik kəndinə gedərdi. Qardaşı Əli Çələbinin evini ziyarət edərdi. Dağ kəndi olan Siriyin yolları isə çox təhlükəli idi. O yollarda dəfələrlə avtomobil qəzaları baş vermişdi. Hətta yaralananlar və dünyadan köçənlər də olmuşdu. Fatma ana çox narahat idi. Yolda çoxlu iri daşlar, qayalar var idi. Günlərin birində Sirik camaatını bir yerə yığıb yolları əl ilə də olsa düzəltmək qərarına gəldiyini bildirdi. **Camaat düsəri, beli, baltası, lomu** olan götürüb həmin təhlükəli yerləri min bir əziyyətlə də olsa düzəltdilər.

Fatma ana milli adətlərimizə, bayramlarımıza çox bağlı bir insan idi. Sirik kəndi dağlıq ərazidə yerləşdiyi üçün belə bayramların, mərasimlərin keçirilməsi üçün geniş, rahat bina yox idi. Bunu nəzərə alaraq el anamız kənddə bir klub tikdirmək qərarına gəldi. Bu məqsədlə də camaatı yığıb fikrini açıqladı. Camaat bir səslə bu fikri alqışladı. Bu işlərdə Fatma ana həm də maddi cəhətdən yardımçı olurdu. Tezliklə kənddə bir klub tikdilər və camaat klubun qapısının üstündə "Fatma adına klub" sözlərini yazdırdılar.

Sirik camaatının bir hissəsi də Gəyən adlanan, aran sayılan bir yerdə məskunlaşmışdılar. Bu kənddə camaat sudan çox çətinlik çəkirdilər.

"Su həyatdır" deyiblər. Susuz isə əkin-biçin mümkün deyildi. Fatma ana da bu kənddə məskunlaşmışdı. Fatma ananın maddi və mənəvi köməkliyi ilə kəndə su çəkdilər. Camaat rahat nəfəs aldı. Bu kəndin başqa problemi də var idi. Körpə balaların, yeniyetmələrin təhsil problemi. Qonşu kənddə olan məktəb çox uzaqda olduğu üçün yağışlı, qarlı havalarda getmək şagirdlər üçün çox çətin idi. El anamızın təşəbbüsü ilə maddi-mənəvi dəstəyi ilə bu problemin də öhdəsindən elliklə gəlindi. Kənddə yeni məktəb tikdilər.

Fatma ana daxilən çox zəngin bir insan idi. Şeirə, poeziyaya, məntiqli, dəyərli fikirlərə xüsusi həssaslıqla yanaşırdı. Xüsusilə də milli dəyərlərimizə, bayramlarımıza çox diqqətlə yanaşırdı, onların bir növ təbliğatçısı idi. Sovet hökumətinin qadağan etdiyi dövrlərdə belə Novruz bayramını hər il gizli şəkildə də olsa keçirirdilər. Novruz bayramı ən çox bəyəndiyi bayramlardan biri idi. Hətta həyatının son anlarında belə 1989-cu ildə video çəkən kameranın yeni bilinən vaxtlarında kənddə keçirilən Novruz bayramını kameranın yaddaşına köçürtdü. Hətta respublikamızın o vaxtlar mövcud olan AzTV-nin efirində göstərilməsinə də nail oldu. Çox təəssüf ki, bu bayram el anamızın iştirak etdiyi son Novruz bayramı oldu. Allah Fatma anaya qəni-qəni rəhmət eləsin, məkanı cənnət olsun.

Fatma ana həm də yetimlərin, kimsəsizlərin, kasıb balalarının mənəvi anası idi. Hər vaxt belə uşaqlarla maraqlanır, maddi və mənəvi dəstək olurdu. Belə insanların şənliklərində, məclislərində şəxsən özü iştirak edirdi ki, qoy məclis şənlikli, maraqlı keçsin.

***Elin şən günləri, toyu-düyünü,***
***Fatma məclislərin yaraşığıydı.***
***O adi deyildi, insan donunda,***
***İstəkdən doğulmuş gün işığıydı.* (F.A.)**

Fatma ananın çöhrəsində elə bir nur var idi ki, hamının diqqətini cəlb edirdi. O dəqiqə başa düşürdülər ki, o, adi bir qadın deyil. Bu qeyri-adilik bir müqəddəs ana təsiri bağışlayırdı. Axı o həm də müqəddəs Çələbilər nəslinin ağbirçəyii idi.

Çox hörmətli türk şairi Yunis Əmrənin əsərlərində də Çələbilər nəslinə verilən dəyərli, qiymətli fikirlərə təsadüf edirik:



Əli Çələbinin evi və klub



24.06.1993

***Haqq Çələbim, Haqq Çələbim,***
***Sən kimisi yox, Çələbim.***
***Bağışlansın günahımız,***
***Ey rəhməti çox Çələbim.***

Sirik kəndində dünyaya göz açmış, o kənddə boya-başa çatmış bir şair kimi respublikamızda daha çox "Vətənə getməyim gəlir" şeiri ilə məşhurlaşmış istedadlı şairimiz Fərzalı Abbasəlioğlu el anamızın cəmiyyət üçün, el-oba üçün gördüyü xeyirxah, gözəl işlərə görə qürur hissi keçirir, elimizdə, obamızda, kəndimizdə belə bir ananın olması ilə fəxr edir və o hissləri poetik dillə belə ifadə edirdi:

***El anasın anam bildim,***
***Cuşa gəldi şeirim, dilim.***
***Bəxtəvərdi Sirik elim,***
***Fatma kimi anası var.* *(F.Abbasəlioğlu)***

El anamız şair Fərzalının şeirlərini bəyənirdi. Hətta ona "mənim şairim" deyə müraciət edərdi. Söz yox ki, bu səmimi, gözəl ifadə ilə şair qürur hissi keçirərdi.

Elimiz, camaatımız respublikanın müxtəlif rayonlarında, şəhərlərində, çadırlarında pərakəndə şəkildə məskunlaşmışdılar. Şair o vaxtlar qərib diyarlarda yandırılan çərşənbə tonqallarını yada salır:

***Harayımız qərib, ünümüz qərib,***
***Vətəndə vətənsiz qərib olmuşuq.***
***Hərə öz ocağın salıb yadına,***
***Tonqalın önündə fikrə dalmışıq.***

***Səməndər quşutək Fatma ananın,***
***Ruhu çadır-çadır elləri gəzər.***
***Həsrətdən kövrəlmiş şair Fərzalı,***
***Qərib süfrələrə şeirlər düzər.***

Şair Fərzalı köçkünlüyün, qaçqınlığın ilk illərində sanki dərdini bölüşməyə, şikayətini deməyə adam tapmırdı, çünki hamı eyni dərddə idi. O anlarda şair xəyalən Fatma anaya dərdini, şikayətini bildirirdi:

***Yenə fikirlərim dolaşıq düşüb,***
***Fatmayla üz-üzə kövrək çağımdır.***
***Elin anasına şikayətim var,***
***Dağılmış xanələr ürək dağımdır.***



08.11.2020

Fatma ananın əməlləri, xeyirxahlığı, qayğıkeşliyi, səmimiyyəti kimi özü də pak idi. Çünki o, anadan elə pak doğulmuşdu:

***Bəşər yaddaşına yazdı, yaşatdı***
***Dünyaya tək gəlib, tək gedənləri.***
***Hər ocaq yetirməz, hər ana doğmaz,***
***Dünyaya pak gəlib, pak gedənləri.***

Fatma ananın mənsub olduğu çələbilər nəsli elə bir nəsildir ki, tarix yüz illəri, min illəri keçsə də, o müqəddəslik, ucalıq heç vaxt unudulmur.

***Tarix min illəri keçdi haxladı,***
***Nə bir dağ silkələndi, nə bir daş laxladı.***
***Allah qəlbində əziz saxladı,***
***Allahı qəlbinə həkk edənləri.***

Fatma ana tək özü üçün yaşamadı, o, elin, obanın qayğısı ilə yaşadı. Ona görə də el anamız hamı üçün doğma idi, əziz idi.

***Kimi ömür sürdü, kimi verdi bada,***
***Kimi doğmalaşdı, kimi döndü yada.***
***Ucalan görmədim heç vaxt dünyada,***
***Tanrı dərgahına kəc baxanları.***

Şair Fərzalı Abbasəlioğlunun şeirlərində də bu fikir, bu ifadə bir daha öz təsdiqini tapır.

***İstəyirsən varlığımı dara çək,***
***Yada düşcək könlüm açar gül-çiçək.***
***Fatma nənən Peyğəmbərin qızı tək,***
***Elin yaddaşında qaldı, Məhəmməd!***

Hörmətli, istedadlı şairimiz, ziyalımız Ənvər Şıxlar Mehdiyevin yaradıcılığında da torpaqlarımız işğalda olan zamanlarda, elimizin, xalqımızın o ağır günlərində Fatma ana dühasına, müqəddəs ruhuna müraciəti görürük.

***Fatma nənə, de, sovuşsun bu xata,***
***Mazan nənə ağır işə əl ata.***
***Gordubaba, Pirabidin, Şıx ata,***
***Cəbrayılım - el ünvanım qalıbdı.***

Şair Fərzalı Abbasəlioğlunun köçkünlüyün, qaçqınlığın ilk illərində qəlbini sıxan çox sıxıntılar var idi - evsizlik, işsizlik, ailə qayğıları, sayı-hesabı olmayan çətinliklər. Ancaq bütün bu sıxıntılara baxmayaraq şairə təskinlik verən, ümidləndirən bir cəhət var idi.

***Fərzalı, qəlbini sıxmasın kədər,***
***Demə talan oldu, ellər dağıldı.***
***Doğma yurdumuzu qorumaq üçün,***
***Fatma heykəlləşib Sirikdə qaldı.***

Onu da qeyd etmək istəyirəm ki, Fatma ananın el üçün, oba üçün gördüyü bütün işlərdə ən yaxın köməkçisi Sirik kəndinin sakini Veysəlov Məhəmməd Teyyub oğlu olmuşdu. Məhəmməd Veysəlov bütün görüləcək işlərin həyata keçməsində el anamıza canı-dildən köməklik edirdi. Fatma ana haqq dünyasına qovuşandan sonra Məhəmməd Veysəlovun təşkilatçılığı ilə Sirik camaatının köməkliyi ilə kəndin qəbiristanlığının qarşısında el anamızın çox möhtəşəm, əzəmətli heykəli ucaldıldı. Biz televiziya ekranlarından görürdük ki, erməni faşizmi Qarabağda olan bütün şəhərlərimizi, kəndlərimizi xarabazara çevirib, qəbiristanlıqları dağıdıb, həyətlərdə min bir əziyyətlə əkilmiş ağacları belə kəsmişdilər. Bu erməni vandalizminin görünən üzü idi.

44 günlük Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsində ilk azad olan Cəbrayıl rayonu oldu. Sevincimizin həddi-hüdudu yox idi. Çünki 30 illik həsrətimizə son qoyulurdu. Rəşadətli ordumuz işğalçı erməni ordusunu darmadağın etdi. Cəbrayılımız azad olduqdan sonra ilk düşündüyümüz orada olan müqəddəs ocaqlarımız, ata-analarımızın, babalarımızın, nənələrimizin qəbirləri idi. Çünki evlərimizin dağıldığını təsəvvür edirdik. El anamız Fatma ananı ürəkdən sevən insanların isə düşündüyü bir fikir var idi - görəsən heykəl nə vəziyyətdədir?

El anamızın ən yaxın köməkçisi, təşkilatçısı olan Məhəmməd Veysəlovun oğlu Əvəz Veysəlov çox narahat idi. Tezliklə heykəldən xəbər tutmağa çalışırdı.

Günlərin birində Tanrının köməkliyi ilə bir də gördü ki, Sirik kəndinin qarşısındakı Gav adlandırılan yerdədir. Əvəzlə yoldaşlıq edən sürücü danışırdı ki, Gava yeni çatmışdıq ki, Əvəz birdən həyəcanlı səslə qışqırmağa başladı. Heykəl salamatdı, heykəl salamatdı deyə-deyə ağlayırdı. Əlbəttə, bu sevinc göz yaşları idi. Bu inanılmaz, möcüzəli, müjdəli xəbəri ilk dəfə elimizə, obamıza gətirən də Əvəz Məhəmməd oğlu oldu. Hamımızın Əvəzə çox böyük təşəkkürümüz var. Həqiqətən inanılmaz bir möcüzə idi. Çünki, ermənilər əsl faşistdirlər. Onlar qəbirstanlıqları hətta bıçaqlı traktorlarla dağıdıb, qəbirləri deşib ölülərin qızıl dişlərini çıxarırmışlar. Doğrudan da, inanılmaz bir möcüzə idi ki, bu faşistlər Fatma ananın heykəlinə toxunmamışdılar. Görünür bu faşistlər müqəddəs el anamız Fatma ananın dühası, böyüklüyü qarşısında da aciz qalmışdılar. Hətta Fatma ananın tikdirdiyi kluba, qardaşı Əli Çələbinin o vaxtlar yaşadığı evə də toxunmamışdılar. Bu, əsl möcüzə idi: El anamız Fatma ana möcüzəsi.

**Məhəmmədəli ZAMANOV,**
*müəllim*

"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN
№ 13-14 (6865-6866) 23 dekabr 2022-ci il


# Ənvər Şıxlar poeziyasında yurd sevgisi

**Şair Ənvər Şıxlar Mehdiyevin şeirləri toplanmış "Seçilmiş əsərləri" ("Bakı Mətbəəsi" ASC. Bakı - 2022) işıq üzü görüb. Qeyd edim ki, Ənvər Ağalar oğlu Mehdiyev 1939-cu ildə Cəbrayılın Şıxlar kəndində dünyaya göz açıb. 1969-cu ildə ADU-nun filologiya fakültəsini bitirib. Uzun müddət müəllim işləyib. Doğulduğu kəndi özünə təxəllüs götürən şairin indiyədək 7 kitabı çap olunub və "Seçilmiş əsərləri" onun sayca 8-ci kitabıdır.**

Kitab müəllifin Şıxlar kəndi ilə bağlı ədəbi-publisistik oçerki ilə başlayır və bu yazıda doğulduğu kəndin sanki toponimik relyefi çəkilib. Kəndin coğrafi mənzərəsini əks etdirən fikirlər elə bil ki, oxucularını kitabda rastlaşacağı şeirlərdə rast gəldiyi yer-yurd adları ilə bəri başdan məlumatlandırmağa xidmət edir, yəni bu oçerkdə Ənvər müəllim kəndinə - yurduna olan sonsuz sevgisini publisistik üslubda ifadə elədiyi kimi, poeziyasında da bu sevgini bədii üslubda dilə gətirir. Başqa cür desək, qürbət həyatı keçirdiyi son 30 ildə o vətəni tərənnüm edən misraları ilə dil-dil ötən nəğməkar bülbül kimi çıxış etmişdir. Onun bu kitabdakı şeirləri də bunu bir daha təsdiq edir. Kitabda ilk şeirdə yer almış misraların ruhu da dediyimizi təsdiqləyir:

**Tazənə vur, bu dünyanı silkələ,**
**Yer fırlansın, günəş düşsün bu elə,**
**Çal, Ənvəri Qarabağda dəfn elə,**
**Namazını bu havayla qıl, aşıq!**
**Çal, nisgili Sarıteldə çal, aşıq!**

Bu möhürbənddə aşığa müraciətlə səsləndirilən misralardakı "bu dünyanı silkələ, yer fırlansın, günəş düşsün bu elə" ifadələri bədii sözlə Qarabağımızın bəxtinə gün düşməsini arzulamasıdır. "Yer fırlansın" dedikdə coğrafi biliklərdən öyrəndiyimiz yerin günəşin və öz oxu ətrafında fırlanması, şimal yarımkürəsini günəşin nisbətən az işıqlandırması fikri bədiiliklə metaforaya transfer olunmuş, ictimai aləmdə çərxi-fələyin ədalətlə fırlanmasını və günəşin Qarabağa öz azadlıq günəşini salmasını obrazlı şəkildə dilə gətirmişdir. Göründüyü kimi, doğma yurd, Qarabağ sevgisi misraların əsas cövhərini təşkil edir.

Növbəti şeirdə də biz vətən, yurd sevgisinin izharını açıq-aşkar izləyirik:

**Xəyalımı cilovlaya bilmirəm,**
**Qarabağda yarı canım qalıbdı, -**

misraları ilə start götürən ilk bənddən axıracan biz Ənvər Şıxların vətənin hər qarış torpağına, daşına olan sonsuz sevgi - məhəbbətinin şahidi oluruq. "Hər şeydən iti - yəni iti sürətli olan nədir?" deyəcəyimiz sorğunu "fikir, xəyal" kimi cavablandırırıq. Doğrudan da, insanın fikri-xəyalı bir göz qırpımında bütün dünyanı dolaşa bilir. Ənvər müəllim də cilovlayıb saxlaya bilmədiyi xəyalı ilə canından çox sevdiyi və hələlik ayağı dəyə bilmədiyi doğma - "yarı canı qaldığı Qarabağda" cövlan edir. Əvvəldə qeyd etdiyim kimi, oçerkdə yer verdiyi yurdun toponimik xəritəsini məhz bu şeirdə lirik duyğuların təsiri ilə təsvir edir:

**Xatirələr yumağıdır bu çağım,**
**Təzəpirim, Qızılpirim - ocağım.**
**Təkardıca bir beşikdi qucağım,**
**Şıx günbəzim - din-imanım qalıbdı.**

**Göybulağın qəlbdə yaşı göyərdi,**
**Həsrətimin qəm mayası göyərdi,**
**Suyu Zəmzəm, öz Abi-kövsərdi,**
**Şıxbulağım, - can dərmanım qalıbdı.**

Gördüyümüz kimi misal çəkdiyim bu 2 bənddə oronimlər, mikrotoponimlər mənzərəsi göz önündə bədii sözün siqləti ilə canlandırılır və yurd üstə qubarlanan qəlbin həsrəti misraların ruhunda çırpınır.

Şeir başdan-ayağa yurd nisgili üzərində qurulub.

**Gəlinqaya gədiyindən gün doğar,**
**Tey dağına deyilməmiş sözüm var.**
**Qarış-qarış torpağında izim var,**
**Çətəndaşım, Haraylanım qalıbdı.**

**Qızılqaya üzük, Göygədik qaşı,**
**Qala dağı tarixlərin yaddaşı.**
**Çaxmaq çayı həsrətimin göz yaşı,**
**Qabaq düzüm - nur məkanım qalıbdı.**

**Tilsimi qır, özün yol aç, ya Rəbbi,**
**Çiçək açsın ürəklərin mətləbi.**
**Əli, Suqra, Hacı Qasım Çələbi,**
**Pirəsədim, Qaramanım qalıbdı.**

Diqqətə çatdırım ki, Cəbrayıl torpağı ziyarətgahlarının çoxluğu ilə diqqəti cəlb edir. Deyərdim ki, XVI-XVII əsrlərə aid qədim Çələbilər məscidi istisna olmaqla Cəbrayıl rayonunda məscidlərin yerini ta əvvəldən müqəddəs ziyarətgahlar əvəz edib. Yəni tarixi qədimlərə söykənən müqəddəs tarixi yerlər və abidələr əhalinin ibadət-inam ocaqları kimi müqəddəs sayılmışdır. Ənvər Şıxlar da öz şeirlərində və eləcə də gətirdiyimiz bu nümunədə bu tipli müqəddəs ocaqlara işarə etmişdir. Misal gətirdiyim şeirdəki Pirəsəd, Qaraman ifadələri də Cəbrayıl rayonundakı müqəddəs ocaq-övliya hesab olunan Pirəsəd kəndindəki Pirəsəd pirinin və həmin pirə yaxın ərazidə yerləşən Hacı Qaraman pirinin - ocağının adlarıdır. Cəbrayıl torpağının əksər guşələrində bu cür müqəddəs pirlər - ocaqlar vardır ki, bu da vətənimizin müqəddəsliyinin əlamətlərindən bir göstəricidir. Başqa cür desək, müqəddəs torpaqlarımızın müqəddəs ziyarətgahları vətənimizin müqəddəsliyinə dəlalət edən əbədi nişangahlardan hesab olunmalıdır.

**Şeir rübabında sən də, ay Ənvər,**
**"Köçgəldi" havası çal Qarabağda.**

misraları ilə tamamladığı bu şeirdə isə müəllif vətənə qovuşmaq arzusunu bu səpkidə dilə gətirib. "Köçgəldi" ifadəsi yurdundan məcburən köçən ellərin doğma yurda qayıtmaq istəyini əks etdirir. Yəni gedən köçümüzün geriyə qayıdıb gəlməsi - köçün qayıdıb gəlməsi arzusu çin olsun və bu şadlıq "Köçgəldi" havası üstündə bayram coşqusu ilə müşayiət olunsun. Necə ki, Dədə Qurbani

***"Nə ola, bir şadlıq xəbəri gələ,***
***Yüklənə barxanam ellərə doğru" deyirdi.***

Əbəs deyil ki, digər bir şeirində Ə.Şıxlar əlinin çatmadığı, ününün yetmədiyi Qarabağın onun üçün hələlik məkan yox, ürəkdə bəslənən iman-din olduğunu bildirir:

**Dərd üstündən dərd ürəkdə çin-çindi,**
**Ənvər bir ünvansız yol gedir indi.**
**Qarabağ məkan yox, imandı, dindi,**
**Gedirəm imandan, dindən xəbərsiz.**

Bu möhürdənd "vətənə gəldim - imana gəldim" məsəlimizdəki müvafiq ideyanı əks etdirir. Yəni Qarabağ vətən olaraq imanımız - dinimizdir, ancaq nə qədər ki, o, bizə məskən edə biləcəyimiz - ayaq basa biləcəyimiz məkan deyil, deməli, "vətənə gələ bilmiriksə - imana, dinə gələ bilmirik", ona görə də vətənsiz - məkansız getmək (həyatda gəzmək və yaşamaq) elə "imandan, dindən xəbərsiz getmək" kimi bir şeydir. Bax Ənvər Şıxlar vətənə sevgisini xalq ruhundan çıxış edərək bu cür dilə gətirib.

Şairin o tay - bu tay nisgili də bütov Azərbaycan arzusunun təcəssümü kimi Xudafərin körpüsünə ünvanlanıb:

**Niyyəti xoş, əməli bəd olmusan,**
**Həsrət dolu ürəkdə dərd olmusan,**
**Bu get-gələ gözləri dörd olmusan,**
**Xudafərin körpüsü!**

"Cığırlar", "Bənövşə", "Dağlar", "Dərələr", "Xətrinə", "Kəkliyi", "Bu yollar" rədifli şeirlərində də Ənvər Şıxlar füsunkar təbiəti - flora və faunası olan vətənimizin gözəlliklərini vəsfə çəkir, bu vəsf - tərənnüm duyğuları da öz rişəsini sonsuz vətənpərvərlik hisslərindən götürür. "Çığırlar", "Dərələr", "Bənövşə" şeirləri haqda isə xüsusi olaraq onu demək istərəm ki, bu nümunələr hər biri həmin mövzuda yazılmış nadir poetik təbiət lövhələridir.

"Sən dərsə gəlməyəndə" adlı şeir isə Leyli və Məcnun haqdakı qədim məhəbbət əfsanəsini yada salmaqla kövrək sevgi duyğularından yoğrulmuşdur:

**Kədərim salxım-salxım,**
**Hayıfın kimdən çıxım?**
**Yaş olub gözdən axım,**
**Sən dərsə gəlməyəndə?**

**Məni məndən alırsan,**
**Min əzaba salırsan.**
**Görən, harda qalırsan,**
**Sən dərsə gəlməyəndə?**

**Sən oturan partadan**
**Soruşuram astadan.**
**Deyir: "Bilim mən hardan?"**
**Sən dərsə gəlməyəndə?**

**Halım yaman turş olur.**
**Xəyal dönüb quş olur.**
**Evinizə tuş olur,**
**Sən dərsə gəlməyəndə?**

**Öz-özümdən itmişəm,**
**Yol üstünə getmişəm.**
**Ağac olub bitmişəm,**
**Sən dərsə gəlməyəndə?**

**Dünya mənə dar olur,**
**Dil lal, qulaq kar olur.**
**Canıma azar olur,**
**Sən dərsə gəlməyəndə?**

**Bil bu Ənvər hardadır:**
**Sıxıntıda - dardadır,**
**Cəhənnəmdə, gordadır**
**Sən dərsə gəlməyəndə?**

Bütöv misal gətirdiyim bu nümunənin 2-ci misrası olan "hayıfın kimdən çıxım?" ifadəsi xalq dilində gəzib-dolaşan "hayıf çıxmaq" ifadəsindən qaynaqlanır. Uşaqlar öz aralarında olan inciklikərinin əvəzini - "hayıf"ını çıxmaqla ürəklərini soyutmağa çalışarlar. Yəni "Əvəz çıxmaq" ifadəsinin qarşılığı olaraq "hayıf çıxmaq" sözünü işlədirlər. Uşaq dünyası saf olur və onlarda kinküdurət olmadığına görə onların inciklikləri də keçici olur, ötəri umu-küsülüyün əvəzini (hayıfını) bir-birindən yüngülvari "qisas almaqla" çıxırlar. Yəni bu "qisas" ifadəsi düşmənçiliklə yaranan münasibətlərdən irəli gələn qisası yox, adi, yüngülvari inciklikdən doğan "qisas"ı bildirdiyinə görə, buna uşaqlar öz aləmində uşaq saflığı ilə "hayıf çıxmaq - əvəz çıxmaq" deyirlər. Ənvər Şıxlar saf duyğuların bəhrəsi olan məhəbbət macərasından söz açdığından, şeirin əvvəlində kədərinin - "sənsizlik hüznü"nün hayıfının (dırnaqarası qisasının) kimdən çıxılmasını soruşur. Daha açıq desək, istədiyi qızın dərsə gəlməməsindən kədərlənən "aşiq" bu dərsə gəlməmənin səbəbkarını axtarır və o səbəbkarı tapıb ondan "hayıf" çıxmaq həvəsinə düşür. Şeirin ruhundan da biz burada saf duyğulardan doğan həzin nisgilin - ayrılıqdan doğan nisgilin kövrək izharını görürük.

Dərs illəri - məktəb illəri şairin yaddaşında əbədilik yurd salmış bəxtəvər vətənli illərin yaşantılarıdır və bu nöqteyi-nəzərdən götürdükdə, əslində, bu şeir özü də bilvasitə vətən anlayışının sevgi-məhəbbət çağları fonunda təsvirə gətirilməsidir. Çünki vətən insanın gözünü açıb, özünü ətraf aləmdə tanıdığı tanış-doğma mühitlə bağlı olan unudulmaz günlər, aylar, illər ərzində formalaşan müqəddəs duyğular - dəyərlər kompleksidir. Uşaqlıq və məktəb həyatının macəralarla dolu anları da bu unudulmaz müqəddəs dəyərlərin tərkib hissəsidir. Ona görə də bu şeir hər kəsdə vətənlə bağlı nostalji duyğuları hərəkətə gətirir.

**Arzuya bələyib, laylaya bükub,**
**Məni bu dünyaya gətirdi anam.**
**"Qaqqa" tək sözləri dilimə töküb,**
**Yarımçıq deyəndə bitirdi anam.**

Ana mövzusunda çox şeirlər yazılsa da, Ənvər Şıxların bu şeiri də özünəməxsus deyim tərzi ilə və mövzuya yanaşma prinsipinə görə orijinaldır. Sözləri "qaqqa-billə" kimi körpəsinə yedirən ana və ana dilinin şirinliyi bir araya gətirilir: ana müqəddəsliyi və ana dilinin müqəddəsliyi kontekstindən məsələyə yanaşan şair növbəti bəndlərdə ana və vətən anlayışlarının qovuşuq vəhdətini etnoqrafik məişət lövhələrinin təsviri fonunda diqqət mərkəzinə gətirir:

**Boylanıb xalçadan neçə naxışda,**
**Bəzədi toyları payızda, qışda.**
**Qonumda-qonşuda, dostda-tanışda,**
**Hörmətdir, izzətdir, xətirdir anam.**

Bu dörd misrada cəmiyyətin əsas sütunlarından olan ailəni-ailə qurma mərasimi olan toyu göz önündə canlandırır. Xalçaçılıq xalqımızın məişətində ta qədim çağlardan mühüm rola malik olub və ana obrazında xalçaçı qız-gəlinlərimizin zehni və fiziki əməyi ifadəsini tapıb. Ananın ictimaiyyətdə qazandığı nüfuz, xətir-hörmət və bundan qürurlanan, fərəhlənən övladda yaranan bəxtəvərlik duyğuları... Bu, insanın doğulub-yaşadığı məhəllədə, böyüdüyü eldə-obada özünü tanıdığı doğma mühitdir. O doğma mühit ki, insanın yaddaşına əbədilik həkk olan kiçik vətən anlayışının silinməz konturlarıncıdır. Buna görə də ana və vətən anlayışları xalqımızın təfəkkür tərzində, dünyabaxışında vəhdətdə anılır və Ana vətən ifadəsi şüurlarda hakim düşüncəyə çevrilir. Şair Ənvər Şıxların yaratdığı Ana obrazında beləcə Ana ilə vətən anlayışları vahid məna sırasında təcəssümünü tapmış olur.

Şair Ənvər Şıxlar Mehdiyevin Sarı Aşığa xitabən yazdığı cinas bayatılar da diqqəti cəlb edir:

**Canı yansa cansıza,**
**Canlı dönər cansıza,**
**Aşıqdan cinas de ki,**
**Cansız cana can sıza.**




Maraqlı həyati mülahizələrdir: cansıza canlının canı yansa, canlı heyrətindən və ürəyiyumşaqlığından muma dönüb yumşalar - heykəlləşib cansıza dönər. Qanı canında donub, cansızlaşar. Ardınca isə belə bir fikir vurğulanır ki, Aşıqdan - haqq aşığı Sarı Aşıqdan cinas (cinaslı kəlmələr, ifadələr) söylə ki, cansız cana da can sızsın - cansız da sözün ecazkar siqlətindən cana gəlsin, yəni cansıza da söz təsir etsin. Burada "Aşıqdan cinas de ki" misrasında müəllif təkcə sözün müstəqim mənasında - hərfi mənasında Sarı Aşıq yaradıcılığından yox, həm də Sarı Aşıq üslubunda özündən cinaslar yaradıb - sözlər qoş demək istəyir. Başqa sözlə, Sarı Aşığın təcnis bayatılarını ustalıqla davam və inkişaf etdirməyi də yazar olaraq təqdir və təbliğ - tövsiyə edir.

**Salma sən yada dərdi,**
**Gizli çək ya da dərdi,**
**Aşığı Yaxşı duyar,**
**Çatarmı yada dərdi?**

Bu bayatı da Sarı Aşıq üslubunda yazıya alınmış təcnisdir. Aşığın dərdini sevgilisi Yaxşı duyar, yad - özgə bu dərdi duyub anlaya bilməz deyir.

Göründüyü kimi, şair Ənvər Şıxlar sözün polisemantik çalarından yararlanmaqla Sarı Aşıq üslubunda təcnislər yazmaqla da mühüm ədəbi uğura imza atır. Ana dilinin poetik imkanlarından qədərincə istifadə edir. Ancaq nədən və necə yazmasından asılı olmayaraq onun misralarında bir vətən yanğısı, bir yurd sevgisi var. Bu sevgi onun yaradıcılığından bir qızıl xətt kimi gəlib keçir. Sarı Aşıq da haqq aşığı olmaqla və xalq ruhunun bədii tərcümanı olmaqla elə əslində xalqımızın bağrından qopmuş el aşığıdır, xalqımızın ünlü sənətkarıdır. Sarı Aşığa müraciətən onun üslubunda təcnis bayatıları qələmə ala bilmək də prinsipcə xalqa, vətənə sevgi üstündə köklənmək deməkdir. Bir sözlə, Ənvər Şıxların yazdıqlarında sözün bütün çalarlarında vətənə, yurda sevginin atəşin tərənnümü əsas yer tutur. İnşallah, tezliklə doğma yurda qayıtmaq və orada yazıb-yaratmaq nəsibiniz olsun!

**Şakir ALBALIYEV**

# DÖYÜŞ YOLU CƏBRAYILDAN, QUBADLIDAN, LAÇINDAN KEÇDİ...






Süleymanov Rasim Əyyub oğlu 1975-ci ildə Qumlaq kəndində anadan olub. 18 yaşına çatanda taleyinə elindən-obasından didərgin düşmək yazıldı. İmişli şəhərində gəlib məskunlaşdılar. Elə burada da rayonumuzun Stansı Xələfli kəndindən olan Əsədova Şüşən Müseyib qızı ilə rastlaşıb tanış olmuşdu. 1997-ci ildə ailə həyatı qurdular. 1998-ci ildə bir qız övladları dünyaya gəldi. Adını Gülnurə qoydular. Bir neçə ildən sonra - 2001-ci ilin 9 aprelində isə Uca Tanrı gənc ailəyə bir oğul payı verdi. Rasim həyatda erkən yaşlarından itirdiyi atası Əyyub kişinin adını verdi oğluna. Min bir arzudiləklə övladlarının qayğısını çəkməyə başladılar. Məcburi köçkün həyatı yaşasalar da, oğuldan oğul, qızdan qız payları olduğundan özlərini bəxtəvər hesab edirdilər.

Ailə Biləsuvarda məcburi köçkünlər üçün salınmış qəsəbəyə köçdüyündən, uşaqlar da burada məskunlaşdıqları 7 saylı qəsəbədəki İsgəndər Tahirovun adını daşıyan Cəbrayıl rayonu Mehdili kənd orta məktəbində oxudular. Əyyub burada 9-cu sinfi bitirdikdən sonra (2007-2016-cı illər) 8-ci qəsəbədə fəaliyyət göstərən 31 saylı texniki peşə məktəbində montyorluq ixtisası üzrə təhsilini davam etdirdi.

2019-cu ilin 10 aprelində həqiqi hərbi xidmətə yollanan Əyyub Süleymanov Gəncədəki mühafizə bölüyündə xidmətə başladı. Onsuz da ürəyində hərbçi olmağa qərar vermişdi. Hərbi xidməti dövründə intizamlı və bacarıqlı



keyfiyyətlərinə görə əsgər yoldaşlarının və komandir heyətinin hörmətini qazanmışdı. "Xudafərin" qəzetinin 25 yanvar 2021-ci il tarixli sayında Hidayət Səfərlinin Əyyub Süleymanov haqqındakı yazısında da hərbi hissə tərəfindən dəfələrlə valideynlərinə təşəkkür məktubu göndərildiyi qeyd olunub.

Əyyubun atası Rasim kişi ilə söhbət zamanı deyir ki, oğlumun hərbi xidmətini başa vurmağa 3 gün qalmışdı ki, döyüş başladı. Onsuz da onun arzusu idi ki, əsgərliyini bitirəndən sonra da orduda qalıb vətənimizə hərbçi kimi xidmət etsin. Hərbiyə çox meylli idi. Ona görə ki, daimi ata-baba yurdumuz haqqında maraqlanardı və eşidib-üzünü görmədiyi cənnətmisal yurdumuzu düşmənlərdən azad etməyin yolunu da ancaq hərbi yolda görürdü. Hərb yolunda isə vətənə cəsur hərbçilərin lazım olduğunu gözəl anlayırdı. Bax torpaqlarımızı işğaldan azad etmək istəyi idi onu hərbi həyata meyllən-dirən. Elə bu yolda da canını qurban verdi.

Rasim kişi söhbətinə davam edib bildirdi ki, Əyyub həmişə komandirlərinə gileylənirmiş ki, müharibə niyə başlamır? Axı torpaqlarımızı biz döyüşüb azad etməliyik. Elə o həvəslə də 27 sentyabr 2020-ci ildə başlanan 2-ci Qarabağ müharibəsinə ürəklə yollandı. Cəbrayılımız düşmənlərdən geri alınanda sevincək evə zəng etdi, bizi muştuluqladı ki, doğma yurdumuz artıq azad edilib. Çox qorxmaz oğul idi. Laçında düşmənin ərzaqla dolu maşınını təkbaşına ələ keçiribmiş. Bizimlə danışanda da parolla danışardı, yeri-yurdu haqda məlumat verməzdi. Döyüş vaxtı silahını qranatomyotla dəyişmişdi ki, düşmənə daha güclü zərbə vura bilsin. Dədə-baba torpaqlarımızı görməmişdisə də, doğma yurda çox bağlı idi. Söz vermişdi ki, Vətən torpaqlarımızı işğaldan azad edib, bayrağımızı özüm o torpaqlara sancıb gələcəyəm.





Əyyub Rasim oğlu Süleymanovun döyüş yolu Cəbrayıldan, Qubadlıdan, Laçından keçdi. Laçının Güləbird və Şıxlar kəndləri uğrunda döyüşlərdə şücaət göstərdi. Elə son döyüşü də burada oldu. Noyabrın 3-də, 44 günlük Vətən müharibəsinin bitməsinə bir neçə gün qalmış şəhidlik zirvəsinə ucaldı. Noyabrın 4-də böyük bir izdihamla onu Biləsuvar rayonu ərazisindəki əhalimizin məskunlaşdığı 4 saylı qəsəbənin ətrafında şəhidlər üçün ayrılmış xiyabanda dəfn etdilər.

"Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", habelə "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunan Əyyub Süleymanovun bacısı Gülnurə Qarazadə ilə söhbət edərkən deyir:

"Qardaşım haqqında nə desəm azdı.Bir bacı üçün qardaş kimdirsə, mənim üçün də o idi Əyyub.Mənim üçün Əyyub həm də dostuydu, sirdaşıydı, ürəyi təmiz, əli açıq yoldaşıydı.Mən heç vaxt kaş bir qardaşım, ya bacım da olardı deməmişəm. Çünki Əyyub mənim üçün hər şey idi. Onunla bağlı çox arzularım vardı:tək qardaşımın əsgərlikdən salamat gəlməsi, toyunu görmək və s. Hamısı yarım qaldı. Ağacın budağı, qolu qırılanda necə yarımçıq qalırsa, mən də elə qalmışam.Uşaqlıqdan indiyə hər zaman Şükür etmişəm. Uşaqla uşaq, böyüklə böyük idi. Yaşı az olsa da, ətrafında o qədər sevəni var idi. O qədər gözəl gülürdü, danışıb zarafat edirdi ki... hamıya özünü çox istətmişdi.Can parçam qardaşımın ən böyük arzusu idi Hərbçi olmaq, Ali təhsil belə almadı.Əsgərlik etmək idi arzusu.Sonra isə orduda qalıb işləmək.Bayrağımızın vurğunu idi. 1il 6 ay şərəflə qulluq etdi.Müharibə başlayanda heç bizə bildirmədidə.Biz nə bilərdik ki 19 yaşında cavan oğlan görmədiyi torpaq üçün can atıb komandirinə qabaqda döyüşmək üçün yalvarırmış? Cəbrayılımızın azadlığı üçün gedən döyüşlərdə öndə vuruşaraq torpağımızı azad edib.Qubadlıda, Laçında doyüşüb. Laçın rayonunda şücaət göstərib və orada Əyyub postu yaradıb dostları. Qardaşım haqqında qürurla çox şey danışıb yazaram, heç bir kitaba





sığmaz.Əyyubun döyüş yolu çox qürurverici olub: 19 yaşında müharibə görməyən,amma içində düşmənə qarşı böyük nifrətlə torpağını azad etmək istəyən bir gənc. Hər zaman deyərdi kaş döyüş ola, gedəm döyüşəm eee, bacı... Arzusuna çatdı... Cəbrayılda döyüşərək rayonumuzu, kəndlərimizi düşməndən azad etdi.Günlərlə 110 km yolu piyada gedib, Qubadlını azad ediblər, sonra da Laçın rayonunda döyüşüb...".

Bu sözlər bir şəhid bacısının qardaşı ilə bağlı qürurla danışmasıdır...

Əyyub Rasim oğlu Süleymanovun qısa və şərəfli ömür yolu isə əbədiyyətəcən uzanan şəhidlik adlı bir yolla qovuşub, xatirələrdə, ürəklərdə, düşüncələrdə əbədiyyən yaşayacaqdır.

**Əlifoğlu Şakir**

# Şuşanın ilahi butası - XARIBÜLBÜL

Azərbaycanımızın dilbər guşələrindən biri Qarabağ, Şuşa isə Qarabağımızın incisi sayılıb. Şuşa həm də ona görə bizim üçün müqəddəsdir ki, bu vətən torpağı füsunkar təbiət mənzərəsi ilə zəngin tarixi mənəvi irsimizi özündə bütövləşdirib. Əngin yüksəkliklərdə qıy vuran məğrur qartal kimi Şuşamız da coğrafi relyefi baxımından yüksəkliklər qoynunda qərar tutmuş, Günəşi, Ayı salamlayan füsunkar təbiət gözəli timsalındadır. Təbii-coğrafi görünüşü ilə əfsanəvi Gülüstani-İrəmi simvolizə edir Şuşamız.

**Vətən bağı al-əlvandır,**
**Yox içində xarıbülbül, -**

deyə fəğan eləyən Xan qızının əhvalatı bütün aləmə bəlli. Bəli, Şuşanın təbii əsrarəngizliyinin bir möcüzəsi də məhz onun qoynunda bitən əfsanəvi gözəlliyə malik olan Xarıbülbül güludür. O əfsanəvi gülün vətəni əzəmətli Şuşa torpağıdır. Xarıbülbül Şuşamızın ilahi butasıdır. Gül bülbülə aşiq, bülbül də gülə aşiq - əzəli və əbədi, ayrılmaz göbəkkərtmə ilahi butalardır. Bu aşiqliyi, bu butanı Allahtəala öz qüdrətindən yaratdığı bir-birinə sarmaşmış sevgililər kimi Xarıbülbülün təcəssümündə görk elətdirib. Bu dünyadakı cənnət bağçasında - Şuşada görə bilirik biz bu təbii möcüzəni. Bülbül gülün butası, gül bülbülün butası, onların hər ikisinin qovuşuq vəhdəti olan Xarıbülbül isə Şuşamızın təbii butasıdır. Şuşamızın uğrunda can fəda edən igidlərimiz isə metaforik olaraq Xarıbülbülün timsalındadırlar. Şuşamız uğrunda axıtdıqları al qanları ilə "çiçək açdılar" - Xarıbülbül çiçəyinə döndülər. Şuşamızın, bütövlükdə vətənimizin aşiqləri - butaları kimi öz butalarına qovuşdular. Təbiətlə cəmiyyətin harmoniyası metaforik olaraq reallıqda bu cür təcəssümünü tapır.

**Şakir Əlif oğlu ALBALIYEV,**
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

## UĞURLAR OLSUN!

"Xudafərin" qəzetinin baş redaktoru, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şakir Əlif oğlu ALBALIYEV Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlinski tərəfindən Vətən Müharibəsi mövzusundakı silsilə yazılarına görə və "Xudafərin" qəzetinin 90 illiyi münasibətilə "Həsən bəy Zərdabi" diplomu ilə təltif olunmuşdur.

Bu münasibətlə onu təbrik edir, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**"XUDAFƏRİN"**


AZƏRBAYCAN JURNALISTLƏR BIRLIYININ
DİPLOMU
ŞAKİR ALBALIYEV
("Xudafərin" qəzetinin baş redaktoru)
VƏTƏN MÜHARİBƏSİNDƏ XALQIMIZIN ZƏFƏR QƏLƏBƏSİNƏ HƏSR EDİLMİŞ SİLSİLƏ MƏQALƏLƏRİNƏ GÖRƏ VƏ "XUDAFƏRİN" QƏZETİNİN NƏŞRƏ BAŞLAMASININ 90 İLLİK YUBİLEYİ MÜNASİBƏTİ İLƏ
TƏLTİF EDİLİR
Azərbaycan Jurnalistlər Birliyinin sədri
2022-ci il
ELÇİN ŞIXLINSKI

# Şıxalıağalının ilk şəhidi



3 dekabr 1973-cü ildə Cəbrayıl rayonunun Şıxalıağalı kəndində Əvəz Xudiyevlə İmarət Quliyevanın birgə yaşayışından ailənin 7-ci övladı - sonbeşik övladları dünyaya gəldi. ”Allaha təvəkkül edirik” deyib adını da elə Təvəkkül qoydular körpənin. Kəndlərindəki 8 illik məktəbi bitirdikdən sonra sənədlərini yaxın ərazidə yerləşən Sarıcallı kəndindəki texniki peşə məktəbinə verdi, traktorçuluq ixtisasına yiyələndi. Az vaxt ərzində kəndlərində - M.Ə.Rəsulzadə adına kolxozda işlədi. Hərbi xidmətə getmək yaşı çatdıqda, o da yaşıdları kimi vətənin müsəlləh əsgəri olaraq orduya yollandı. Əsgərlik axı həm də kişilik məktəbidir, bu kişilik məktəbindən sağlam cana sahib olan vətənin hər bir oğul övladı keçməlidir. Bir də ki, oğul düşmən çəpəridir - deyib babalarımız. Təvəkkül Xudiyev kimi gənclərimizin əsgərlik yaşı isə vətənin ağır dövrünə təsadüf etmişdi. Nankor qonşularımız olan ermənilər torpaqlarımıza göz dikmişdilər. Qarabağımızı qanlı caynaqlarına keçirmək üçün xarici havadarlarına güvənib ərazilərimizi işğal etmək üçün min cür oyundan çıxırdılar. Bu, elə bir dövr idi ki, yenicə müstəqillik əldə etmiş gənc bir ölkə kimi nizami ordumuz da tam formalaşmamışdı. Bax vətənin bu dar vaxtlarında Təvəkkül kimi mübariz gənclərimiz əzmkarlıq göstərərək - ”qanlarını qaşığa qoyub” düşmənin qabağında ”ətdən çəpər çəkirdilər”. Yəni düşmənin havadarları ilə birləşib üstümüzə odlu silahlarla hücum elədiyi gərgin, ağır vaxtlarda vətənimizin igid balaları canlarını - bədənlərini topa - gülləyə canlı sipər edib, qorxmazlıq, mətinlik nümayiş etdirirdilər. 20 yanvar 1990-cı ilin Qanlı yanvarında doğma Bakımızda əliyalın insanlar işğalçı ordunun qabağına əliyalın, lakin təpərli ürəklə çıxıb, canlarını zirehli texnikanın qabağına ”ətdən çəpər” etdikləri kimi, Qarabağımızda da əhali yabadəhrə, balta ilə silahlanıb düşmənin qarşısına mərdi-mərdanə çıxırdı. Bax bu cür kritik məqamlarda əsgərlərimiz də tam formalaşmamış milli ordumuzun sıralarında düşmənlə ölüm-dirim savaşına girib, haqq savaşı aparır, torpaqlarımızı mənfur düşmənin həmləsindən qoruyurdular.

Təvəkkül Əvəz oğlu Xudiyevin də gənclik dövrü və əsgərlik yaşı bu cür ağır vaxtlara düşdü. O, ağır artilleriya qoşunları tərkibində ZEPO döyüş texnikasında atıcı idi. 1992-ci il o dövrün şahidləri yaxşı xatırlayırlar. Cəbrayılın tarixində qanlı və igid övladlarımızın sayəsində həm də şanlı döyüşlərlə dolu tarixi dövr kimi də xarakterizə etmək olar o dövrü. O qanlı döyüşlərin şanlı iştirakçısı idi. Təvəkkül 13 avqust 1992-ci ildə şanlı ordumuzun ermənilərdən təmizlədiyi Banazur kəndindəki xidməti postunda idi. Mənfur düşmənlərimizin həmləsinin qarşısını almaq üçün düşməni layiqli cavab atəşi ilə susduran Təvəkkül Xudiyev özü də ağır yaralanır və şəhidlik zirvəsinə ucalır. Doğulub böyüdüyü Şıxalıağalı kəndinin ilk şəhidi kimi adını əbədiləşdirib, 1993-cü ilin avqustunda oxuduğu səkkizillik məktəbə onun adını verirlər.

Təvəkkül Xudiyevin şəhidliyindən 30 ildən çox vaxt keçir. Lakin aradan nə qədər çox vaxt gəlib keçsə də, tarix heç vaxt qəhrəmanları unutmur, onların adlarını öz silinməz səhifəsində əbədi saxlayır. Şükürbəyli kəndinin inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mehdi Yaqub oğlu Məmmədov



deyir ki, Təvəkkülün 88 yaşında olan ixtiyar yaşlı anası İmarət xala oğlu Sərməstlə, qızları Zülfiyyə, Şərifə ilə və digər doğmaları ilə birgə Şıxalıağalı kəndində uyuyan Təvəkkülün məzarını gedib ziyarət ediblər. İnşallah ki, yaxın gələcəkdə şəhidlərimizin can qoyduqları doğma torpaqlarımıza Böyük köçümüz də başlanacaq və onda orada baş qoyub yatan bütün şəhidlərimizin və əzizlərimizin məzarını ziyarət edə biləcəyik. Eləcə də Şıxalıağalı kəndinin məzarlığında uyuyan Təvəkkül Xudiyevin və həmçinin onun həmkəndlisi şəhid Quliyev Baloğlan Əlif oğlunun da məzarları həmımız tərəfindən ziyarət olunub, gülçiçəyə bürünəcəkdir. Axı onlar torpaqlarımızın gülüstana çevrilməsi yolunda canlarından keçmişlər...

Bəli, Mehdi Yaqub oğlunun sözünün davamı və qüvvəti olaraq deyim ki, Təvəkkül də, digər şəhidlərimiz də məhz vətənimizin gülüstana dönməsi və azadlığımız uğrunda candan keçdilər;Vətən isə öz azadlıq fədailərini heç vaxt unutmur...

**Şakir ALBALIYEV**

# “Qara qan”ın durulması

**Noyabrın 29-da Azərbaycan Yazıçılar Birliyində yazıçı-publisist Fazil Güney Abbasovun "Qara qan" trilogiyasının əlavələr edilib tamamlanmış 5-ci nəşrinin təqdimatı oldu. Tədbiri giriş sözü ilə açıb iştirakçıları salamlayan Fazil Güney bildirdi ki, biz bura "Şuşa ili" çərçivəsində "Qara qan" romanının yazılıb tamamlanması münasibətilə yığışmışıq. 120 ildir ki, Qarabağda gizlində və aşkarda müharibə gedir. Görkəmli yazıçımız M.S.Ordubadinin "Qanlı sənələr" əsəri, Əyyub Abbasovun "Zəngəzur dağlarında" əsəri bu mövzuda yazılıb və hamımıza yaxşı məlumdur. "Qara qan" romanı da Qarabağda gedən qanlı müharibələrdən bəhs edir.**



Daha sonra Fazil Güney tədbiri aparmaq üçün sözü professor, türkoloq, ”Ocaq” cəmiyyətinin təsisçisi Tofiq Məlikliyə verdi.

Tofiq Məlikli ”Qara qan” romanının yazılmasına müəllifin 25 il vaxt sərf etdiyini diqqətə çəkib bildirdi ki, Tolstoy ”Hərb və Sülh”ü 7 ilə yazıb. 25 il ərzində Fazil Güney çox böyük zəhmətə qatlaşıb, vətənpərvər, millətçi ziyalı kimi Qarabağda cərəyan edən hadisələri realist bir üslubda təsvir etmişdir.

Aparıcı çıxışına davam edərək Fazil Güneyin Əfqanıstanda hərbi tərcüməçi işlədiyindən, diplomatik fəaliyyətindən, şərqşünas alim olmasından da danışdı. Kitabın böyük ruh yüksəkliyi ilə yazılıb tamamlandığını - ”Qara qan”ın 44 gündə durulmasını özündə əks etdirən bir sonluqla tamamlanmasını qeyd etdi.

”Xalq qəzeti”nin baş redaktorunun 1-ci müavini, Ahıl Jurnalistlər Məclisinin rəhbəri Tahir Aydınoğlu çıxışında dedi ki, Fazil Güney bu əsərə diplomatiyanın, şərqşünaslığın dəyərlərini gətirib. 30 illik qanlı tariximizi mürəkkəblə yox, qara qanla yazıb. Hər sətrindən, abzasından, epizodundan qan damır. Düşmən ölməyib, düşmənin özündən də məkrli, hiyləgər havadarları var. ”Qara qan” bu müharibəni əks etdirməkdə ədəbiyyatımızda mühüm yer tutur. Müəllif həm də ”Assa-İradə” Informasiya Agentliyini yaradıb, ingilis dilində həqiqətlərimizin dünyaya çatdırılmasında mühüm xidmətlər göstərib. Odlu nöqtələrdə diplomat olub. Bütün bu kimi təcrübəsindən də yararlanıb dəyərli bir əsər yazıb. Əsər təsviri əsər deyil. Hər abzası böyük bir tədqiqatın məhsuludur. Bundan başqa, F.Güney İslam Ölkələri Həmrəylik




Təşkilatı jurnalistlərinin rəhbəridir. Bu sahədə də yetirmələri var.

Yazıçı Yasif Nəsirli kitabı böyük məhəbbətlə oxuduğunu deyib, Salam Qədirzadənin ”Bir qış gecəsi” əsəri ilə müqayisə apardı, romanda görmək istədiyi məqamlardan danışdı. Daha sonra müəllifin Ulu öndər Heydər Əliyev xarici səfərdə tərcüməçi-diplomat kimi müşayiət etdiyini diqqətə çəkib qeyd etdi ki, romandakı Elbəy obrazı yazıçının özünün prototipidir.

Psixiatrlar Assosiasiyasının Prezidenti, tibb elmləri doktoru, professor Nadir İsmayılov çıxışında qeyd etdi ki, romanı ilk oxuyanlardan biriyəm. İkinci dəfə oxumağa hazırlaşıram. Ordakı epizodlar real, səmimi şəkildə əks etdirildiyindən, oxucunu özünə çəkir. Əsər çoxseriyalı film materialı verir və yaxşı olardı ki, onun əsasında film çəkiləydi.

20 il Ağdamda çıxan ”Yenilik” qəzetinin redaktoru işləmiş əməkdar jurnalist Bəbir Hüseynov bir vaxtlar özünün yazdığı ”Evləndirdilər... məzdədilər” felyetonunu xatırlatmaqla həyatdan götürülən mövzuların oxunaqlılıq qazanmasından söz açdı və qonşu kimi də, yazıçı, publisist kimi də Fazil Güneyi yaxşı tanıdığını bildirdi, müəllifə uğurlar arzuladı.

Professor Asif Rüstəmli yazıçının əsərdəki obrazları sevəsevə təsvir və tərənnüm etdiyini diqqətə çəkib bildirdi ki, əsərin qəhrəmanı jurnalist Aysu obrazı trilogiyanın hər üç hissəsində iştirak edir. Əgər başqa adekvat bir ad təklif olunsaydı, əsərin adı Aysu olmalı idi. Aysu əsir düşən qızlarımızın mərdanə obrazıdır. Əsərdə İvan adlı rus hərbçinin Aysunu xilas etdiyi təsvir olunur. Ancaq eyni zamanda Aysu da İvanı daxilən silkələyir və mənəviyyatsızlıqdan onu xilas edir. Aysu obrazı trilogiyanın bütün budaqlarına işıq salır. Yazıçı həyat həqiqətlərini bədii həqiqətə çevirib, sözə sədaqət göstərib. Roman xarici dillərə çevrilib yayılsa, daha böyük effekt verə bilər.

AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, professor Şahin Fazil, yazıçı-filosof Firuz Mustafa, şairə Güləmail Murad, səfir Tofiq Abdullayev, Əməkdar jurnalist Azər Həsrət, kitabın ədəbi qəhrəmanlarından biri, istefada olan polis polkovniki Vaqif Məhərrəmov, ”Şuşa” qəzetinin baş redaktoru Vasif Quliyev və başqaları çıxışlarında ”Qara qan” romanının ədəbi-bədii məziyyətlərindən



söz açdılar. Yaxın gələcəkdə Cəbrayılda təqdimatının keçirilməsini arzuladılar.

Tədbirin aparıcısı Tofiq Məlikli tədbir iştirakçıları adından romanın Dövlət Mükafatına təqdim edilməsi təklifini irəli sürdü.

Sonda ”Qara qan” trilogiyasının müəllifi Fazil Güney çıxış edərək iştirakçılara səmimi və xoş fikirlərə görə təşəkkürlərini ifadə etdi və kitabını avtoqraf yazmaqla oxuculara hədiyyə etdi.

**ƏLİFOĞLU**

## *Laylalardan ...ağıya kimi yaşadığımız ömür*

**Laylalar ana dilimizin əlifbasıdır. Körpə 9 ay ana bətnində ananın qanı və ruhu ilə qidalanır. Ana rəhmindən qopandan sonra isə bu qida müvafiq olaraq ana südü və ana laylası ilə əvəzlənir. Ana südü körpəni cismən yaşatdığı kimi laylalar da körpənin etnik- sosial varlığını mənən yaşatmağa xidmət edir. Ağ lövhəni andıran körpənin beyni (ruhu, yaddaşı) layla dünyası ilə təmasdan dinclik-sakitlik tapır, dilimizin şirinliyi körpənin ruhuna, qanına hopur. Beləliklə, layla ilə böyüyüb pərvəriş tapan Azərbaycanlı balası folklorumuzun digər janrları ilə -oxşama, bayatı, nağıl,dastan və s.- ömürgün sürür. Son mənzilə də ağl ilə yola salınır. Beləcə, Azərbaycan insanı beləkdən qəbir evinə kimi laylalardan ...ağıya kimi folklor dünyamızın hikməti ilə qol-boyun olub mənalı bir ömür yaşayır.**

Ş.ALBALIYEV



“Xudafərin harayından qalan mən!..”
XUDAFƏRİN

# Korşalmayan yaddaşımız filmdə

**Uzun zaman fasiləsinin aradan gəlib keçdiyini ifadə eləmək üçün dilimizdə çox zaman "onun (o hadisənin) üstündən bir əsr, ya da ki, bir qərinə gəlib keçib" cümləsini işlədirik. Bununla ona işarə olunur ki, ötüb keçən bu bir əsr (qərinə)lik müddətdə baş verənlər artıq unudulub, onları xatırlamağa yaddaş korlaşıb. Həmçinin o hadisələrin şahidlərinin də çoxu artıq həyatda yoxdur.**



Bizim dədə-baba yurdlarımızın işğalda qalması da bir qərinəyə yaxın çəkdi. Bu bir qərinənin içində çoxları yer-yurd həsrətilə dünyadan köçdü. Bu, düzdür. Ancaq işğal faciəsi elə sosial-psixoloji sarsıntıdır ki, bu dəhşəti yaşayıb-görənlər bütün ömürləri boyu bu ağrını-acını çəkir, ovunmaz-sağalmaz sızıltı kimi onu özləri ilə qəbir evinə kimi çəkib aparırlar. Buna görə də hərəyə bir cürə çalın-çarpaz sinə dağı çəkən, hərənin beyninə bir cürə travmatik zədə vuran məcburi köçkünlük ağrı-acısı heç zaman acı xatirələr kimi yaddaşımızda korşalmaz.

44 günlük Vətən müharibəsində qazandığımız parlaq Qələbəmizin işığında ölkə prezidentinin təşəbbüsü ilə yurd yerlərimizlə bağlı sənədli filmlər çəkilir və bu zaman istər-istəməz korşalmayan yaddaşımızdakı xatirələrimiz çözülür - vərəqlənir. Azərbaycanla həmişə müttəfiq olan dost İtaliyadan gələn çəkiliş qrupu ilə birgə müvafiq layihə əsasında işğaldan azad olunmuş rayonlarımızla bağlı sənədli film çəkilir. Layihə çərçivəsində ”Cəbrayıl Memorial Kompleksi” adlı Cəbrayıl rayonu ilə bağlı sənədli filmin çəkilişi də bu qəbildəndir. Əli Rza Xələfli, Mirzə Mirimli, Hidayət Səfərli, Nağı Əlif oğlu, Vaqif Əlisoy, Vaqif Məhərrəmov, mən ... və başqaları İtaliyadan gələn çəkiliş qrupunun üzvləri və bizim Mədəniyyət Nazirliyinin əməkdaşlarının birgə təşəbbüsü ilə araya-ərsəyə gələn sənədli filmə müsahibələr verdik. Ziyalının da, hər bir sıravi vətəndaşın da yaddaşında sağalmaz stresslər kimi əbədi yaşayan məcburi köçkünlük faciəsinin ağrıacıları dil açdı. Sənədli filmin əbədilik yaddaşına köçdü...

**Şakir ALBALIYEV**

## “Yurd yerlərimiz” silsiləsindən



**HİDAYƏT SƏFƏRLİ**

### Dağ Tumasım

Səsləyir yurd yeri, gəlir harayı,
Ömürdən saymadıq ötən hər ayı.
Ovsuna düşübdü “Divlər sarayı”;
Mənim ilham pərim - qoşmam, cinasım,-
**Dağ Tumasım!**

“Nəfəsli dərə”də dərim nəfəsi,
Qırım, parçalayım o daş qəfəsi.
Qəlbimdə tükənməz dönüş həvəsi;
Ordadı sevincim, həm də ki yasım,-
**Dağ Tumasım!**

Arzu-istəyimdi, tez əlim çata,
Dağlar, düzənlər də mənə naz sata.
Bağışlar Tumas dağ, bağışlar Ata;
Danlasın dinləyim, mən qulaq asım,-
**Dağ Tumasım!**

Övliya, ocaqdıhərtərəf, həryan,
Biz sənə can dedik, sən bizə dərman.
O ruhlar verəcək bu yerdə fərman;
Geri qayıdımmı, ya ayaq basım,-
**Dağ Tumasım!**

İgidlər yurdusan başdan, binadan,
Səni viran qoyub zalım - o nadan.
Heç ayrı qalarmı bala anadan;
Nə vaxtdı qan qoxur geyim, libasım,-
**Dağ Tumasım!**

Vəsf edib qələmim nəğmələr yazır,
Sənə diş qıcayan öz qəbrin qazır.
Sözüm bəyanımdı: dönməyə hazır;
Səndə yaşamımdı mənim xilasım,-
**Dağ Tumasım!**
**Dağ Tumasım!**

### Kavdarım

Yurd yerini bir də gəzib dolaşdım,
Neçə-neçə dərə endim, dağ aşdım.
Viran qalmış bir obaya yanaşdım;
Burda imiş əhdə vəfa, ilqarım,-
**Kavdarım!**

Canbir qəlbdi, Mirək sənlə yanaşı,
Yağılarla sona verdik savaşı.
Bu torpağın səngər, qala-adaşı;
Bəs eylədi bizə yalnız ay yarım,-
**Kavdarım!**

Səni gördüm bir istəyə tuş oldum,
Qanadlandım, zirvə gəzər quş oldum.
Heyrətimdən dönüb qaya, daş oldum;
Daşlaşıbdı burda sərvət, həm varım,-
**Kavdarım!**

Övladların qorxmaz, igid, mehriban,
Dəyişə bilməyib bizi vaxt, zaman.
Sayılıbdı Vətən, torpaq-din, iman;
Cihada çağırıb dinim, dindarım,-
**Kavdarım!**

Yanar ocaq yerim, külüm-"Kültəpə",
İstəyir yoluma çiçək, gül səpə.
Yolumuz doğru yol, yox gərək çəpə;
Vətən sevgisidi dilim, dildarım,-
**Kavdarım!**

Hər qarış torpağın sirli, soraqlı.
Sözlü-söhbətlisən, dolu varaqlı.
Bir əldə qələm var, biri oraqlı;
Ağıl, zəhmət ilə adlayıb darım,-
**Kavdarım!**

Səni gözlər şad günüm, həm şənliyim,
Qayıdıbdı şərəf, qürur, mənliyim.
İsbatını verdik sonda tənliyin;
Yaşa qalib ordum, yaşa sərdarım,-
**Kavdarım!**

### Şahvəlli

Çaxmaq çaydan yola çıxdı köçümüz,
Allah, bəndə, bir də yurddu - üçümüz.
Bu üçlüdən qüvvə aldı gücümüz;
Tariximiz qədimdi, köklü, təməlli,-
**Şahvəlli!**

Çay yatağı suyla dolub boşaldı,
Şahdəlidən bu el-oba xoş haldı.
Ömür keçdi, zaman ötdü, yaşaldı;
Çox da tutma bu dünyanı beşəlli,-
**Şahvəlli!**

"Çır-çırbulaq", "Dahar" yeri, "Qarasu"
Bilmirəm baş alıb gedir hara su?
Can ver bu torpağa, yurda yara, su;
Şum yerim olubdu kotanlı, kəlli, -
**Şahvəlli!**

"Təndirliburun"um, yerim "Qarqucaq",
"Qədim ocaq", "Fatıyeri" - künc- bucaq.
Müqəddəsdi burda bizə hər ocaq;
Deməyim əbəsdi, hər kəsə bəlli,-
**Şahvəlli!**

Boynu bükük qalıb xeyli zamandı,
Hər sözü, söhbəti ahdı, amandı,
Hüseyni gözləyən tardı, kamandı;
Gəlsin büsatına şeir-qəzəlli,-
**Şahvəlli!**

Əlim üzülməyib heç vaxt əlindən,
Adın düşməyib ki, dinən dilimdən.
Məni soruşarsan sənsiz ilimdən;
Baharsız günlərim ötüb xəzəlli,-
**Şahvəlli!**

İzin ver başına dönüm, dolanım,
Mənim varım-yoxum, olub qalanım.
Dilimdən çıxmayıb bil ki, yalanım;
Yurda dönüşümdün son təsəlli,-
**Şahvəlli!**

## TƏBRİK EDİRİK!




Vüsal bəylə Zərrintac xanımı ailə həyatı qurmaları münasibətilə babaları Ataman kişi, nənələri Tamilə, Qərənfil, Zərnigar, ataları Elşən və Nağı, anaları Nəzakət və Aləmzər, qardaşları Tural, Dəniz, bacıları Nuray, Qərənfil təbrik edir, firavanlıq, xoşbəxtlik arzulayırlar.

Təbrikə Şakir müəllim də qoşulur, şən və bəxtəvər ailə həyatlarının gümüş toylarını, qızıl toylarını, brilyant toylarını da görmələrini Ulu Tanrıdan arzu edir.

Xoşbəxt olun, qoşa yarıyın, qoşa qarıyın.

## Hüseyn Cavidin 140 illik yubileyi



08 dekabr 2022-ci il tarixdə Cəbrayıl rayonunun 4 saylı qəsəbə klubunda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şairi, yazıçı və dramaturqu Hüseyn Cavidin 140 illik yubileyi münasibəti ilə ”Mənim tanrım gözəllikdir, sevgidir” adlı tədbir keçirilib. Tədbirdə Cəbrayıl rayon İcra Hakimiyyəti Başçısının müavini Fəridə İbayeva, yazarlar, mədəniyyət işçiləri, ümumtəhsil məktəblərinin müəllim və şagirdləri iştirak ediblər.

Tədbirdə çıxış edənlər H.Cavidin zəngin yaradıcılığından, onun ədəbiyyata əvəzsiz töhfələrindən söhbət açaraq bildiriblər ki, bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir, şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 140 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 24 sentyabr 2022-ci il tarixdə Sərəncam imzalayıb. Sərəncama əsasən respublikamızın bütün elm, təhsil müəssisələrində böyük mütəfəkkirin 140 illik yubileyi təntənə ilə qeyd edilir. Bu münasibətlə rayonumuzun təhsil müəssisələrində də müxtəlif səpkili tədbirlər keçirilir. Bu gün ”Mənim tanrım gözəllikdir, sevgidir” adı altında böyük sənətkarın işığına yığışmağımız da məhz bu məqsədi daşıyır.

Sonda Böyük Mərcanlı kənd Uşaq İncəsənət məktəbinin xanəndələrinin, 8 və 14 saylı tam orta məktəblərin şagirdlərinin ifasında Hüseyn Cavidin şerlərindən ibarət musiqili ədəbi kompozisiya, “İblis”, “Ana” dramlarından və “Azər” poemasından səhnəciklər nümayiş olunub.

“Xudafərin” qəzetinin baş redaktoru Şakir Albalıyev və “Xudafərin”çilər qəzetimizin baş redaktorlarından olmuş

**Hafiz Məzahir oğlu Hüseynxanlının**

vəfatından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və “Xudafərin” qəzeti**

**Hüseynova Rasta Məhəmməd qızı, Beydullayev Məhəmməd Ələkbər oğlu, Rüstəmov Təvəkkül Əkbər oğlu və Həsənzadə Elşən Məhəmməd oğlunun**

vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**CİF 1209641**
**H/h:55233080000**
**kod: 200123**
**VÖEN: 9900003611**
**SWIFT kod: AIIBAZ2X**
**M/h: AZ37NABZ01350100000000001944**
**Benefisiarın hesabı: AZ27IIB410100C9443130139112**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə
“Azərbaycan” nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet “Xudafərin” qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında çap edilib.
**albaliyevshakir@gmail.com**
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3756**
**Tiraj: 2000**